**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında yaşayan və müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması, miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının zəruri informasiya ilə təmin edilməsi, miqrasiya ilə bağlı sənədləşmə, yoxlama, sorğu və təhlil işlərinin avtomatlaşdırılması və bu sahədə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

2.1. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. öz səlahiyyətləri daxilində bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 iyun 2010-cu il
№ 276

Azərbaycan Respublikası Prezidentinin
2010-cu il 4 iyun tarixli, 276 nömrəli Fərmanı
ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında**

# ƏSASNAMƏ

## I. ÜMUMİ MÜDDƏALAR

1. Bu Əsasnamə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sisteminin (bundan sonra — "Sistem") məlumat resurslarının formalaşması və ondan istifadə qaydalarını müəyyən edir.

2. Sistem Azərbaycan Respublikasında yaşayan və müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən öz səlahiyyətləri daxilində qaçqın statusu verilmiş şəxslər (bundan sonra — "qaçqınlar"), habelə xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşları haqqında məlumatların toplandığı informasiya resursudur.

3. Sistem Azərbaycan Respublikasında mövcud olan digər informasiya resursları və sistemləri ilə uzlaşdırılır və inteqrasiya edilir.

4. Sistemin qurulması və istifadəsi prosesində milli informasiya resurslarının təhlükəsizliyinə dair tələblərə riayət olunur.

5. Sistemin informasiya resursları, habelə təminat, inteqrasiya və təhlükəsizlik vasitələri milli informasiya fəzasının tərkib hissəsidir və Azərbaycan Respublikasının mülkiyyətidir.

6. Sistem xüsusi təyinatlı dövlət resursudur. Sistemin əsas təyinatı miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının səlahiyyətləri çərçivəsində fəaliyyətləri üçün zəruri informasiyanın təminatından, miqrasiya ilə bağlı sənədləşmə, yoxlama, sorğu və təhlil işlərinin avtomatlaşdırılmasının həyata keçirilməsi vasitəsilə elektron xidmətlərin göstərilməsindən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya uçotunun aparılmasından ibarətdir.[1]

## II. SİSTEMİN STRUKTURU

7. Sistem aşağıdakı altsistemlərdən ibarətdir:

7.1. "Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi";

7.2. "Azərbaycan Respublikası ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi";

7.3. "Qaçqın vəsiqəsi və yol sənədi";

7.3-1. Səyahət sənədi;[2]

7.4. "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərar";

*7.5. "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı barədə məlumat";*[3]

*7.6. Azərbaycan Respublikasının vətəndaşlığı məsələləri;*[4]

*7.6-1. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsinə dair məlumatlar;*[5]

7.7. “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə verilən iş icazəsi”;[6]

7.8. "Xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşları barədə məlumatlar";

7.9. "Qanunsuz miqrasiyaya qarşı həyata keçirilmiş tədbirlər və nəticələri";

7.10. "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında biometrik informasiya";

7.11. "Mərkəzi serverlər kompleksi, idarəetmə və mühafizə";

7.12. "İnformasiya mübadiləsi";

7.13. "Sorğu, təhlil, hesabat";

7.14. "Proqnozlaşdırma və monitorinq";

7.15. "Blanklar";

7.16. "Audit".

8. Sistem vasitəsilə aşağıdakı informasiya resurslarının formalaşdırılması təmin edilir:

8.1. əcnəbilər;

8.2. vətəndaşlığı olmayan şəxslər;

8.3. qaçqınlar;

8.4. Azərbaycan Respublikasında qaçqın statusu əldə etmək üçün müraciət etmiş şəxslər;

8.5. xaricdə yaşayan Azərbaycan Respublikası vətəndaşları;

8.6. blankların uçotu;

8.7. audit jurnalı.

9. Sistemin infrastrukturuna aidiyyəti dövlət orqanlarında və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumlarında quraşdırılan lokal seqmentlər daxildir.

## III. SİSTEMİN İNFORMASİYA RESURSLARININ FORMALAŞDIRILMASI VƏ ONLARDAN İSTİFADƏ EDİLMƏSİ[7]

10. Sistemin fəaliyyətinin təmin olunması və lazımi informasiya resurslarının formalaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti aşağıdakı vəzifələri həyata keçirir:

10.1. Sistemin mərkəzi serverlər kompleksinin idarə və mühafizə edilməsi;

10.2. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;[8]

10.3. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikası ərazisində daimi yaşamaq üçün icazə verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, daimi yaşamaq üçün icazə vəsiqəsinin fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;[9]

10.4. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması ilə bağlı müvafiq məlumatların toplanması, müvəqqəti olma müddətinin uzadılması barədə qərarın fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;[10]

10.4-1. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün iş icazələrinin verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, iş icazəsi blankının fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;[11]

~~10.4-2. Azərbaycan Respublikasının ərazisində əcnəbi işçi qüvvəsini cəlb etmək və ondan istifadə etmək üçün icazə verilmiş hüquqi və fiziki şəxslər barədə məlumatların Sistemə daxil edilməsi;~~[12]

10.5. qaçqın vəsiqəsinin fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;

10.6. qaçqın statusu almış şəxslərə yol sənədinin fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;

10.6-1. Səyahət sənədinin fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;[13]

10.7. Sistem vasitəsilə verilmiş müvafiq vəsiqələrin və digər sənədlərin qanunvericiliklə müəyyən edilmiş hallarda aktiv statusunun dəyişdirilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi;

10.8. vətəndaşlıq əldə etmək, vətəndaşlığa bərpa və vətəndaşlıqdan çıxmaq üçün müraciət etmiş şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

*10.8-1. Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müəyyən edilən şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;*

*10.8-2. digər dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikası vətəndaşları barədə məlumatların Sistemə daxil edilməsi;*[14]

*10.8-3. Azərbaycan Respublikasının vətəndaşlığını itirmiş şəxslər haqqında məlumatların sistemə daxil edilməsi;*[15]

10.9. Azərbaycan Respublikasında daimi yaşama icazəsi almaq üçün müraciət etmiş və rədd cavabı almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;[16]

10.10. Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazəsi ləğv edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;[17]

10.11. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə əldə etmək məqsədi ilə müraciət etmiş və rədd cavabı almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

10.12. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazəsi ləğv edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

10.13. ölkədə müvəqqəti olma müddətinin uzadılmasına dair müraciət etmiş, lakin rədd cavabı almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

10.13-1. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsi almaq və ya onun müddətini uzatmaq məqsədi ilə müraciət etmiş, lakin rədd cavabı almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;[18]

10.13-2. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün iş icazəsi ləğv edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

~~10.13-3. Azərbaycan Respublikasının ərazisində əcnəbi işçi qüvvəsini cəlb etmək və ondan istifadə etmək üçün icazə almaq məqsədi ilə müraciət etmiş, lakin rədd cavabı almış hüquqi və fiziki şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;~~[19]

10.14. Azərbaycan Respublikasında qaçqın statusu əldə etmək üçün müraciət etmiş, lakin rədd cavabı almış şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

10.15. qanunvericiliklə müəyyən olunmuş qaydada qaçqın statusu ləğv edilmiş şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

~~10.16. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazələrin verilməsi və verilmiş fərdi icazələrin müddətlərinin uzadılması məqsədi ilə müraciətlərin öz rəyi ilə birgə Sistemə daxil edilməsi;~~[20]

10.17. barələrində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilmiş, habelə Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə məlumatların Sistemə daxil edilməsi; [21]

10.18. Azərbaycan Respublikasına gəlişi müəyyən müddətə qadağan edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə məlumatların Sistemə daxil edilməsi;

10.18-1. ölkədə olması arzuolunmaz hesab edilən şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;[22]

10.19. miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatların Sistemə daxil edilməsi;

10.20. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi üçün razılığa dair məlumatın Sistemə daxil edilməsi;

~~10.21. Azərbaycan Respublikası vətəndaşlarının xaricdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün rəylərin Sistemə daxil edilməsi;~~[23]

10.22. Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşayan, habelə müvəqqəti olma müddəti uzadılmış *və ya qaçqın statusu almış* əcnəbilərin və

vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı barədə məlumatların Sistemə daxil edilməsi;[24]

*10.22-1. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı barədə məlumatların Sistemə daxil edilməsi;*[25]

10.23. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aid biometrik məlumatlar üzrə informasiya resurslarının formalaşdırılması üçün məlumatların toplanması, identifikasiya işlərinin təşkili;

10.24. müəyyən olunmuş qaydada Sistemlə digər əlaqəli dövlət və beynəlxalq informasiya resursları arasında məlumat mübadiləsinin təşkil edilməsi;

10.25. Sistem çərçivəsində aidiyyəti dövlət orqanları arasında informasiya mübadiləsinin, o cümlədən yoxlama və razılaşdırma işlərinin elektron sənəd dövriyyəsi qaydasında təşkil edilməsi;

10.26. sorğu, təhlil və hesabat işlərinin mərkəzləşdirilmiş qaydada təşkil və təmin edilməsi;

10.27. Sistem çərçivəsində verilən sənəd blanklarının və bu blankların hərəkətinin uçotu;

10.28. sistemdaxili audit fəaliyyətinin təşkili və həyata keçirilməsi.

11. Aşağıdakı məlumatların Sistemə təqdim olunması təmin olunur:

11.1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyası tərəfindən:

11.1.0. Azərbaycan Respublikası vətəndaşlığına qəbul, *bərpa və Azərbaycan Respublikasının vətəndaşlığından çıxma* məsələləri ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul edilən qərarlar barədə məlumatlar;[26]

11.2. Azərbaycan Respublikasının *Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti* tərəfindən: [27]

11.2.0. ~~müvəqqəti olma müddətinin uzadılması,~~ müvəqqəti və ya daimi yaşamaq üçün icazə və Azərbaycan Respublikası vətəndaşlığına qəbul, xitam və bərpa məsələləri ilə bağlı verilmiş rəylər, habelə qaçqın ~~və immiqrant~~ statusu verilməsi ilə bağlı aparılmış yoxlamalar nəticəsində əldə edilmiş məlumatlar; [28]

11.3. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən:

11.3.1. barələrində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında müvafiq qərar qəbul edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sərhədindən çıxışı barədə məlumatlar;

11.3.2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə vəsatətlə müraciət etmiş Azərbaycan Respublikasında qaçqın statusu almaq niyyətində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə məlumatlar;

11.4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən:

11.4.1. Azərbaycan Respublikasında fəaliyyət göstərən rəsmi qeydiyyatdan keçmiş təhsil müəssisələrində təhsil alan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar;

11.4.2. ali təhsil müəssisələrində mühazirə kurslarının oxunması üçün dəvət edilən əcnəbi professor-müəllim heyəti, mühazirəçilər və elmi-tədqiqat işləri aparan mütəxəssislər haqqında məlumatlar;

11.4.3. dövlət xətti ilə xaricdə təhsil alan Azərbaycan Respublikası vətəndaşları haqqında məlumatlar;

11.5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən:

~~11.5.1. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün fərdi icazələrin verilməsi, müddətlərinin uzadılması və ləğv edilməsi barədə qərarlar;~~

~~11.5.2. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün fərdi icazə verilməsindən və uzadılmasından imtina barədə qərarlar;~~[29]

~~11.5.3. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyəti üçün verilmiş, qüvvədə olma müddəti uzadılmış, fəaliyyəti dayandırılmış və ləğv edilmiş xüsusi razılıqlar (lisenziyalar) haqqında məlumatlar;~~[30]

~~11.5.4. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsindən imtina edilmiş hüquqi şəxslər haqqında məlumatlar;~~[31]

11.5.5. Azərbaycan *Respublikasında dövlət qeydiyyatından keçmiş* hüquqi şəxslərin vasitəçiliyi ilə xarici ölkələrdə işə düzələn Azərbaycan Respublikası vətəndaşları haqqında məlumatlar;[32]

11.5.6. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün iş icazələrinin verilməsi və onların müddətinin uzadılması üçün rəylər;[33]

11.6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən:

11.6.1. Azərbaycan Respublikasında profilaktik, ambulator və stasionar müalicə alan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar;

11.6.2. yoluxucu xəstəliklər aşkar edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar;

*11.7. Mehmanxanalar, sanatoriyalar, istirahət evləri, pansionatlar, kempinqlər, turist bazaları, xəstəxanalar və ya digər belə ictimai yerlər tərəfindən:*[34]

*11.7.0. bu yerlərdə qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar;*

11.8. Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən:

11.8.1. Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyata alınmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar;

11.8.2. hüquqi şəxsin təsisçisi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar.

12. Sistemin istifadəçiləri miqrasiya proseslərinin idarə olunmasında, habelə Sistemin informasiya resurslarının formalaşmasında iştirak edən dövlət orqanlarıdır.

*12-1. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi sistemin elektron məlumatlarından real vaxt rejimində istifadə edir.*[35]

## IV. SİSTEMLƏ İNTEQRASİYA OLUNAN DİGƏR DÖVLƏT İNFORMASİYA RESURSLARI VƏ SİSTEMLƏRİ

13. Məlumat-axtarış işlərinin operativliyini və səmərəliliyini artırmaq məqsədi ilə informasiya sistemləri arasında qarşılıqlı informasiya mübadiləsinin yaradılması vasitəsilə Sistem Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri və "Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi ilə inteqrasiya olunur. İnteqrasiya prosesində mübadilə edilən məlumatlar aşağıdakılardır:

13.1. "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi tərəfindən təmin olunan məlumatlar:

13.1.1. ölkəyə gələn və ölkədən gedən şəxslərin sərhədkeçmə nəzarəti və qeydiyyatı haqqında, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasport və viza məlumatları;

13.1.2. sərhədkeçmə yoxlamasının, o cümlədən sərhədi keçən şəxslərin biometrik identifikasiyasının nəticələri haqqında;

13.1.3. sərhədkeçmə rejimini pozmuş, ölkə ərazisinə müxtəlif səbəblərdən buraxılmayan əcnəbilər haqqında;

~~13.1.4. "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə verilmiş Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqələr barədə;~~[36]

13.1.5. Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə verilmiş şəxsiyyət vəsiqələri haqqında;

13.1.6. Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilmiş dənizçinin şəxsiyyət sənədi haqqında;

13.1.7. Azərbaycan Respublikası vətəndaşı olan uşaqları övladlığa götürmüş əcnəbilər haqqında;

13.1.8. axtarışda olan, barəsində tutulma haqqında qərar qəbul edilən, cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilən, barəsində qətimkan tədbiri seçilən, məhkum olunmuş~~, habelə Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılan~~ əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında; [37]

13.1.9. viza verilməsi ilə bağlı müvafiq sorğuların, viza əcnəbiyə dəvət əsasında verildikdə əcnəbini ölkəyə dəvət edən hüquqi və ya fiziki şəxslər haqqında, habelə verilmiş vizalar barədə, o cümlədən onların müddətlərinin bitməsi haqqında;

13.1.10. readmissiya üzrə sorğular, habelə onlara verilən cavablar barədə informasiya resursunda olan məlumatlar;

13.1.11. Azərbaycan Respublikasına qayıdış şəhadətnamələri haqqında;

13.1.12. Azərbaycan Respublikası vətəndaşlarına verilmiş şəxsiyyət vəsiqələri, ümumvətəndaş, xidməti və diplomatik pasportları haqqında;

13.1.13. Azərbaycan Respublikası vətəndaşlarının və daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı haqqında;

13.1.14. "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə verilmiş müvafiq vəsiqələrin, pasportların, vizaların və digər sənədlərin qanunvericiliklə müəyyən edilmiş hallarda aktiv statusunun dəyişdirilməsi haqqında;

13.1.15. şəxsin başqa fərdi məlumatlarla pasport və şəxsiyyət vəsiqəsi almaq, belə sənədlərdən istifadə etmək cəhdləri haqqında;

13.1.16. etibarsız hesab edilmiş, itmiş, oğurlanmış və saxtalaşdırılmış pasportlar, vəsiqələr haqqında;

13.1.17. xaricdə yaşayan Azərbaycan Respublikasının konsulluqlarında uçotda olan Azərbaycan Respublikası vətəndaşları haqqında;

*13.1.17-1. digər dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşları haqqında;*[38]

13.1.18. miqrasiya prosesləri üzərində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri olan digər məlumatlar;

13.2. Sistem tərəfindən "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə təqdim olunan məlumatlar:

13.2.1. miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında;

13.2.2. Azərbaycan Respublikasına gəlişi qadağan edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında;

13.2.2-1. ölkədə olması arzuolunmaz hesab edilən şəxslər haqqında; [39]

13.2.2-2. barələrində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilmiş, habelə Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında;

13.2.3. qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən sənədlər haqqında;

13.2.4. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış, habelə *müvəqqəti olma müddəti uzadılmış və ya* ~~immiqrant və~~ qaçqın statusu almış şəxslər haqqında;[40]

13.2.5. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşayan, *habelə Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılmış və ya qaçqın statusu almış* əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyata alınması~~, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması~~ haqqında;[41]

*13.2.6. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı haqqında;*[42]

13.2.7. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi üçün razılıq haqqında;

*13.2.8. digər dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikası vətəndaşları haqqında;*[43]

*13.2.9. Azərbaycan Respublikasının vətəndaşlığını itirmiş şəxslər haqqında.*[44]

13.3. Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri tərəfindən təmin olunan məlumatlar:

13.3.1. fərdi identifikasiya nömrələri;

13.3.2. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvafiq sənədlərin verilməsi ilə əlaqədar vətəndaşlıq vəziyyəti aktlarından zəruri məlumatlar;

13.3.3. Azərbaycan Respublikası vətəndaşları ilə nikaha daxil olmuş və yaxud nikahı ləğv edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında;

13.3.4. qüvvədən düşmüş sənədlər haqqında;

13.3.5. miqrasiya prosesləri üzərində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri olan digər məlumatlar;

13.4. Sistem tərəfindən Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə təqdim olunan məlumatlar:

13.4.0. Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər və onların yaşayış yeri üzrə qeydiyyata alınması haqqında.[45]

## V. SİSTEMİN FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI

14. Sistemin istismarı, inkişafı və təhlükəsizliyi, normativ tələblərə riayət olunmasına nəzarət edilməsi Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilir.

15. Sistemə yeni subyektlərin qoşulması barədə təkliflər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

16. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti texnoloji yeniliklər nəzərə alınmaqla Sistemin mütəmadi olaraq inkişafı və təkmilləşdirilməsi üzrə təkliflər hazırlayır və Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdıraraq tətbiq edir.

17. Sistemə daxil edilən məlumatların bu Əsasnamə ilə müəyyən olunmuş qaydada, vaxtında və düzgün verilməsi, təhlükəsizliyi aidiyyəti dövlət orqanları tərəfindən təmin edilir.

18. Sistemin komponentlərinin yerləşdiyi rejimli obyektlər qanunvericiliklə nəzərdə tutulmuş qaydada hüquqi, təşkilati və proqram-texniki vasitələrlə, səlahiyyətlərin bölünməsi və nəzarət sistemləri ilə mühafizə olunur.

19. Sistemdə yalnız lisenziyalı proqram-texniki və sertifikatlaşmış mühafizə vasitələrindən istifadə olunur.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 noyabr 2011-ci il tarixli **523** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 noyabr 2011-ci il, № 251; "Azərbaycan" qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 995)**

2. 13 sentyabr 2013-cü il tarixli **982** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1048)**

3. 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)**

4. 17 oktyabr 2014-cü il tarixli **292** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 oktyabr 2014-cü il, № 226, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1177)**

5. 11 fevral 2015-ci il tarixli **455** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 fevral 2015-ci il, № 033, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 117)**

6. 20 may 2016-cı il tarixli **906** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 22 may 2016-cı il, № 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 867)**

7. 7 noyabr 2016-cı il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2016-cı il, № 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1798)**

8. 8 may 2017-ci il tarixli **1373** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 may 2017-ci il, № 99)**

9. 18 may 2017-ci il tarixli **1414** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 may 2017-ci il, № 107)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 6-cı hissənin ikinci cümləsinə "**xidmətlərin göstərilməsindən**" sözlərindən sonra "**, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya uçotununaparılmasından**" sözləri əlavə edilmişdir.

[2] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"yə yeni məzmunda 7.3-1-ci bənd əlavə edilmişdir.

[3] 13 sentyabr 2013-cü il tarixli 982 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1048)** ilə 7.5-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~7.5. "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı və olduğu yer barədə məlumat";~~

[4] 11 fevral 2015-ci il tarixli 455 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 fevral 2015-ci il, № 033, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 117)** ilə 7.6-cı bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~7.6. "Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, xitam və bərpa";~~

[5] 11 fevral 2015-ci il tarixli 455 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 fevral 2015-ci il, № 033, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 117)** ilə yeni məzmunda 7.6-1-ci bənd əlavə edilmişdir.

[6] 11 sentyabr 2014-cü il tarixli 280 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 7.7-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~7.7. "Əcnəbinin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazə";~~

[7] 21 noyabr 2011-ci il tarixli 523 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 noyabr 2011-ci il, № 251; "Azərbaycan" qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 995)** ilə 10.4-1-ci, 10.4-2-ci, 10.13-1-ci - 10.13-3-cü bəndlər əlavə edilmişdir.

[8] 11 sentyabr 2014-cü il tarixli 280 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.2-ci bənddə "**Azərbaycan Respublikası ərazisində**" sözlərindən sonra "**müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması,**" sözləri əlavə edilmişdir.

[9] 11 sentyabr 2014-cü il tarixli 280 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.3-cü bənddə "**Azərbaycan Respublikası ərazisində**" sözlərindən sonra "**daimi yaşamaq üçün icazə verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması**," sözləri əlavə edilmişdir.

[10] 11 sentyabr 2014-cü il tarixli 280 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.4-cü bənddə

"**Azərbaycan Respublikasında**" sözlərindən sonra "**müvəqqəti olma müddətinin uzadılması ilə bağlı müvafiq məlumatların toplanması,**"sözləri əlavə edilmişdir.

[11] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.4-1-ci bənddə "**fərdi icazələrin**" sözləri "**iş icazələrinin verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, iş icazəsi blankının**" sözləri ilə əvəz edilmişdir.

[12] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.4-2-ci bəndi ləğv edilmişdir.

[13] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"yə yeni məzmunda 10.6-1-ci bənd əlavə edilmişdir.

[14] 11 fevral 2015-ci il tarixli **455** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 fevral 2015-ci il, № 033, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 117)** ilə yeni məzmunda 10.8-1-ci və 10.8-2-ci bəndlər əlavə edilmişdir.

[15] 20 may 2016-cı il tarixli **906** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 22 may 2016-cı il, № 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 867)** ilə yeni məzmunda 10.8-3-cü bənd əlavə edilmişdir.

[16] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.9-cu bənddə "**daimi yaşama hüququ (immiqrant statusu) əldə etmək**" sözləri "**daimi yaşama icazəsi almaq**" sözləri ilə əvəz edilmişdir.

[17] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.10-cu bənddə "**daimi yaşama hüququndan (immiqrant statusundan) qanunvericiliklə müəyyən olunmuş qaydada məhrum edilmiş**" sözləri "**daimi yaşamaq üçün icazəsi ləğv edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[18] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.13-1-ci bənddə

"**fərdi icazə**" sözləri və 10.13-2-ci bənddə "**fərdi icazəsi**" sözləri "**iş icazəsi**" sözləri ilə əvəz edilmişdir.

[19] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.13-3-cü bəndi ləğv edilmişdir.

[20] 21 noyabr 2011-ci il tarixli **523** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 noyabr 2011-ci il, № 251; "Azərbaycan" qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 995)** ilə 10.16-cı bənd ləğv edilmişdir.

[21] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.17-ci bənddə "**qəbul edilmiş**" sözlərindən sonra "**, habelə Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış**" sözləri əlavə edilmişdir.

[22] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"yə yeni məzmunda 10.18-1-ci bənd əlavə edilmişdir.

[23] 7 noyabr 2016-cı il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2016-cı il, № 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1798)** ilə 10.21-ci yarımbənd ləğv edilmişdir.

[24] 18 may 2017-ci il tarixli **1414** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 may 2017-ci il, № 107)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.22-ci bəndində "**uzadılmış**" sözündən sonra "**və ya qaçqın statusu almış**" sözləri əlavə edilmişdir.

[25] 13 sentyabr 2013-cü il tarixli **982** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1048)** ilə 10.22-1-ci bənd əlavə edilmişdir.

[26] 20 may 2016-cı il tarixli **906** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 22 may 2016-cı il, № 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 867)** ilə 11.1.0-cı yarımbənddə "**xitam və bərpa**" sözləri "**bərpa və Azərbaycan Respublikasının vətəndaşlığından çıxma**" sözləri ilə əvəz edilmişdir.

[27] 8 may 2017-ci il tarixli **1373** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 11 may 2017-ci il, № 99)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 11.2-ci bəndində "**Milli Təhlükəsizlik Nazirliyi**" sözləri "**Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[28] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 11.2.0-cı yarımbənddən "**müvəqqəti olma müddətinin uzadılması**,", "**və immiqrant**" sözləri çıxarılmışdır və həmin yarımbənddə "**müvəqqəti yaşamaq**" sözləri "**müvəqqəti və ya daimi yaşamaq**" sözləri ilə əvəz edilmişdir.

[29] 21 noyabr 2011-ci il tarixli **523** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 noyabr 2011-ci il, № 251; "Azərbaycan" qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 995)** ilə 11.5.1-ci və 11.5.2-ci yarımbəndlər ləğv edilmişdir.

[30] 7 noyabr 2016-cı il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2016-cı il, № 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1798)** ilə 11.5.3-cü yarımbənd ləğv edilmişdir.

[31] 7 noyabr 2016-cı il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2016-cı il, № 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1798)** ilə 11.5.4-cü yarımbənd ləğv edilmişdir.

[32] 7 noyabr 2016-cı il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 noyabr 2016-cı il, № 253, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1798)** ilə 11.5.5-ci yarımbənddə "**Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış**" sözləri "**Respublikasında dövlət qeydiyyatından keçmiş**" sözləri ilə əvəz edilmişdir.

[33] 21 noyabr 2011-ci il tarixli **523** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 22 noyabr 2011-ci il, № 251; "Azərbaycan" qəzeti, 23 noyabr 2011-ci il, № 258; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 995)** ilə 11.5.6-cı yarımbənd əlavə edilmişdir.

11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 11.5.6-cı yarımbənddə "**fərdi icazələrin**" sözləri "**iş icazələrinin**" sözləri ilə əvəz edilmişdir.

[34] 13 sentyabr 2013-cü il tarixli **982** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1048)** ilə 11.7-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~11.7. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən:~~

~~11.7.0. mehmanxanalarda, kempinqlərdə, turist bazalarında və ya digər bu kimi obyektlərdə qeydə alınan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar;~~

[35] 17 oktyabr 2014-cü il tarixli **292** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 oktyabr 2014-cü il, № 226, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1177)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"yə 12-1-ci hissə əlavə edilmişdir.

[36] 13 sentyabr 2013-cü il tarixli 982 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1048)** ilə 13.1.4-cü yarımbənd ləğv edilmişdir.

[37] 11 sentyabr 2014-cü il tarixli 280 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 13.1.8-ci yarımbənddən "**, habelə Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılan**" sözləri çıxarılmışdır.

[38] 11 fevral 2015-ci il tarixli 455 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 fevral 2015-ci il, № 033, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 117)** ilə yeni məzmunda 13.1.17-1-ci yarımbənd əlavə edilmişdir.

[39] 11 sentyabr 2014-cü il tarixli 280 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"yə yeni məzmunda 13.2.2-1-ci və 13.2.2-2-ci yarımbəndlər əlavə edilmişdir.

[40] 11 sentyabr 2014-cü il tarixli 280 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 13.2.4-cü yarımbənddə "**müvəqqəti yaşamaq**" sözləri "**müvəqqəti və ya daimi yaşamaq**" sözləri ilə əvəz edilmişdir və həmin yarımbənddən "**immiqrant və**" sözləri çıxarılmışdır.

18 may 2017-ci il tarixli 1414 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 may 2017-ci il, № 107)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 13.2.4-cü yarımbəndinə "**habelə**" sözündən sonra "**müvəqqəti olma müddəti uzadılmış və ya**" sözləri əlavə edilmişdir.

[41] 18 may 2017-ci il tarixli 1414 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 20 may 2017-ci il, № 107)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 13.2.5-ci yarımbəndinə "**yaşayan**" sözündən sonra "**, habelə Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılmış və ya qaçqın statusu almış**" sözləri əlavə edilmişdir və həmin yarımbənddən "**, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması**" sözləri çıxarılmışdır.

[42] 13 sentyabr 2013-cü il tarixli 982 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2013-cü il, № 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 09, maddə 1048)** ilə 13.2.6-cı yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~13.2.6. əcnəbilərin Azərbaycan Respublikasının ərazisində 30 günədək müddətdə olduğu yer (mehmanxana, kempinq, turist bazası və ya digər bu kimi obyektlər) üzrə qeydiyyatı haqqında;~~

[43] 11 fevral 2015-ci il tarixli 455 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 fevral 2015-ci il, № 033, Azərbaycan Respublikasının**

**Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 117)** ilə yeni məzmunda 13.2.8-ci yarımbənd əlavə edilmişdir.

[44] 20 may 2016-cı il tarixli **906** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 22 may 2016-cı il, № 110, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 867)** ilə yeni məzmunda 13.2.9-cu yarımbənd əlavə edilmişdir.

[45] 11 sentyabr 2014-cü il tarixli **280** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 14 sentyabr 2014-cü il, № 200; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1060)** ilə "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 13.4.0-cı yarımbənddə "**daimi yaşamaq hüququ (immiqrant statusu)**" sözləri "**daimi yaşamaq üçün icazə**" sözləri ilə əvəz edilmişdir.